**MİLLİ MÜDAFİƏ UNİVERSİTETİ**

***Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə***
***Hərbi tibb, Stomatologiya və İctimai səhiyyə ixtisasları üzrə qəbul üçün***
***tələb olunan sənədlər və qəbul qaydaları***

## *Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya və İctimai səhiyyə ixtisasları üzrə qəbul üçün tələb olunan sənədlər*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** — **Təhsilalma forması: əyani**

Cari ildə ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər

Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya və İctimai səhiyyə ixtissasları üzrə sənəd qəbulu prosesi 3 mart 2025-ci il tarixindən 30 may 2025-ci il tarixinədək həyata keçiriləcəkdir. Namizədlər aşağıda qeyd olunan sənədləri hazırlamalı və sıra ardıcıllığı ilə kağız qovluğa yerləşdirməlidir:

1. **Ərizə**
2. **Anket forması**
3. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
4. **Tam orta, yüksək texniki peşə və ya orta ixtisas təhsili haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
5. **Doğum haqqında şəhadətnamənin surəti**
6. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqə məlumatları üzrə elektron arayış**
7. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli olduqda)**
8. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
9. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə**
10. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri**
11. **Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərində (kabinetlərdə) qeydiyyatda olub-olmaması haqqında arayış**

***Qeyd: Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.***

***HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

1.Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən institutda təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi Tibb Fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına daxil edilmirlər.

2.Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmələri üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinə göndərilir və namizədlər Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilən qəbul imtahanlarında iştirak edirlər. Qəbul imtahanı IV ixtisas qrupu üzrə keçirilir.

3.Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilmiş imtahanda əldə etdikləri nəticələrə əsasən həyata keçirilir.

4.Qəbul imtahanının tarixi Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur .

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasında müayinədən keçmək üçün tarix və ünvan namizədlərə əlavə olaraq bildiriləcək.***